## «İSTİSMAR» DEYƏNDƏ NƏ BAŞA DÜŞÜLÜR?

- Məcburi əmək;
- Cinsi istismar, köləlik;
- Asılılıq vəziyyəti;
- İnsan orqanlarının və toxumalarının qanunsuz çıxarılması;
- Şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması;
- Qadının surroqat ana kimi istifadə edilməsi;
- Qanunsuz fəaliyyətə cəlb etmə.

## İNSAN ALVERİ RİSK QRUPUNA DAXİLOLMA AMILLƏRİ:

- Yoxsulluq səviyyəsi;
- Sosial və iqtisadi bərabərsizlik;
- İşsizlik;
- Təhsil səviyyəsinin aşağı olması;
- Ailədaxili zorakılıq;
- Cinsi ayrı-seçkilik;
- Məlumatsızlıq;
- 18 yaşa qədər uşaq və yeniyetmələr;
- 18-30 yaş arası gənclər, gənc qadınlar;
- 19-55 yaş arası kişilər;
- Kiçik şəhərlərdən, kəndlərdən böyük şəhərə gələnlər və s.

## HANSI ÜSULLARDAN İSTİFADƏ EDIRLƏR?

- Gözəl həyat haqqında əhvalatlar danışırlar;
- Bütün maddi problemlərin həll olunması ilə bağlı vədlər verirlər;
- Yüksək əmək haqqı olan iş təklif edirlər;
- Karyerada yüksəlmə vəd edirlər;
- Hazırlanmış adamlar «əldə etdikləri nailiyyətlər» barədə məlumat verirlər;
- Foto, video materiallar, təqdimatlar nümayiş etdirirlər;

## KİMLƏR VASİTƏSİLƏ İNSAN ALVERİNİN QURBANINA ÇEVRİLİRİK?

- İşədüzəltmə firmaları, nikah və turizm agentlikləri vasitəsilə;
- İş, təhsil, tanışlıq, nikah haqqında internet, qəzet, küçə və televiziya elanları vasitəsilə;
- Tanışlar, qonşular, kurs yoldaşları, iş yerindəki həmkarlar tərəfindən təkliflərlə;
- Xarici agentliklər tərəfindən təkliflərlə;
- Əvvəlcədən hazırlanmış adamlar tərəfindən təkliflərlə;



## VALİDEYNLƏR NƏYİ BİLMƏLİDİRLƏR?

- Valideynlər üzərində uşağın adı olan paltar, oyuncaq və digər əşyalardan istifadə etməməyə çalışmalıdırlar;
- Uşaqların bütün dostlarını şəxsən tanımalı;
- İctimai yerlərdə azyaşlıların əlindən tutmalı;
- Uşağı bağçaya, məktəbə, idmana və s.
  yerlərə apardıqda qapıya qədər ötürməli;
- Uşaqlara yardım nömrələrini öyrətmək.

## TÖVSİYYƏLƏR

**Yeniyetmələr nəyi bilməlidir?**

- **Evdən çıxdıqları zaman getdikləri yer barədə valideynlərinə məlumat verməli, telefon əlaqəsi saxlamaq imkanları olmalıdı;**
- **Tanımadıqları şəxslərin avtomobilinə minməməlidirlər;**
- **İnsan axını az olan parklardan, küçələrdən ehtiyatla keçməlidirlər;**
- **Əgər kiminsə onu izlədiyini hiss edərsə, yaxınlıqda olan insanlardan yardım istəməlidirlər;**
- **Özünü şübhəli aparan şəxsi müəyyən etməyi bacarmalı, onu təsvir edə bilməli, avtomobilin nömrəsini yadında saxlamalıdırlar;**
- **Özlərinə zərər verməmək üçün onlardan pul, telefon, qızıl və s. əşyalar tələb edilərsə, mütləq verməlidirlər.**



## İNSAN ALVERİ NƏDİR?

- **Tamah və gəlir əldə etmək məqsədilə,**
- **Zor, hədə-qorxu və digər vasitələr tətbiq etməklə,**
- **Şirnikləndirmə, imtiyaz, aidatmaqla,**
- **Asılılıq vəziyyətindən istifadə etməklə,**
- **İnsanların saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi başa düşülür.**

**Regional mərkəzlərlə iş şöbəsi: (99412) 498 94 02**

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# İNSAN ALVERİ

# insanlığa qarşı cinayətdir